BAKI
SLAVYAN
UNİVERSİTETİ

# ORHUN MÜBADİLƏ PROQRAMI



*Slavyanşünaslıq üzrə regionun birinci universiteti*

## ORHUN MÜBADİLƏ PROQRAMI

**ORHUN Mübadilə Proqramı** Türk dünyası ölkələrinin ali təhsil müəssisələri arasında tələbə və müəllim mobilliyini təmin edən beynəlxalq təhsil proqramıdır. Bu proqram **Türk Universitetləri Birliyi**nin (**TÜRKÜNİB** – Türk Üniversiteler Birliği) təşəbbüsü ilə həyata keçirilir.

Proqramın əsas məqsədi ortaq tarix, dil, mədəniyyət və dəyərlərə sahib olan türk xalqları arasında təhsil sahəsində əməkdaşlığı gücləndirmək, akademik və mədəni inteqrasiyanı təşviq etməkdir.

### Proqramın məqsədləri:

- Türk dünyası universitetləri arasında qarşılıqlı əlaqələri gücləndirmək;
- Tələbə və akademik heyətin mobilliyini dəstəkləmək;
- Ortaq akademik proqramların inkişafına töhfə vermək;
- Türk dili və mədəniyyətinin yayılmasına və qarşılıqlı anlaşmanın dərinləşməsinə şərait yaratmaq.

### Kimlər iştirak edə bilər?

- **Bakalavriat və magistratura tələbələri** proqramda tərəfdaş universitetlərdə bir və ya iki semestr müddətində təhsil almaq imkanı əldə edirlər.
- **Akademik heyət** (müəllimlər, tədqiqatçılar və s.) mübadilə çərçivəsində tərəfdaş universitetlərdə dərs demək, seminar keçmək və tədqiqat fəaliyyətlərində iştirak edə bilərlər.

### Maliyyələşmə və dəstək:

Proqram çərçivəsində iştirakçılara müxtəlif dəstək mexanizmləri təklif oluna bilər. Bunlara təqaüdlər, yol xərclərinin qarşılanması və yerləşmə imkanları daxil ola bilər (bu məsələlər iştirakçı universitetlər və proqramla əlaqəli qurumlar tərəfindən tənzimlənir).

### Proqramın əhəmiyyəti:

ORHUN Mübadilə Proqramı vasitəsilə tələbə və müəllimlər yalnız akademik biliklərini artırmır, eyni zamanda fərqli türk ölkələrinin təhsil mühitini, mədəniyyətini və ictimai həyatını yaxından tanımaq imkanı əldə edirlər. Bu isə türk dünyası daxilində inteqrasiya və əməkdaşlığa real töhfə verir.

Bakı Slavyan Universiteti (BSU) Türk Dövlətləri Təşkilatının ali təhsil müəssisələrini bir araya gətirən Türk Universitetləri Birliyi (**TÜRKÜNİB**-ə üzv olduqdan sonra ORHUN Mübadilə Proqramı çərçivəsində beynəlxalq təhsil əməkdaşlığını uğurla davam etdirir.

## 2025-2026-cı tədris ilində tələbə mübadiləsi

"ORHUN" Akademik Mübadilə Proqramı çərçivəsində 2025–2026-cı tədris ilinin payız semestrində Bakı Slavyan Universiteti xarici tələbələri qəbul edib.

Mübadilə proqramı vasitəsilə Türkiyənin Artvin Çoruh Universitetindən bir tələbə Filologiya (rus dili və ədəbiyyatı) ixtisası üzrə, Qazaxıstanın S. Amonjolov adına Şərqi Qazaxıstan Universitetindən bir qrup tələbə isə Təhsil fakültəsinin "İbtidai sinif müəllimliyi" ixtisası üzrə BSU-da təhsil alacaqlar.

Bakı Slavyan Universiteti beynəlxalq əməkdaşlığa və tələbə mübadiləsinə xüsusi önəm verir. ORHUN Mübadilə Proqramı çərçivəsində həyata keçirilən bu akademik mübadilə həm tələbələrin çoxmədəniyyətli mühitdə təhsil təcrübəsinin genişlənməsinə, həm də türk dünyası universitetləri arasında elmi və mədəni əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verir.

BSU ailəsi olaraq, qonaq tələbələrə uğurlu və məhsuldar bir semestr arzulayır, onların burada keçirdikləri zamanın elmi biliklərlə yanaşı, yeni dostluqlar və mədəni zənginliklərlə dolu olacağına inanırıq.



## 2025-2026-cı tədris ilində müəllim mübadiləsi

**Türkiyənin Artvin Coruh Universitetinin müəllimi Olqa Zəncirci** 14-28 sentyabr 2025-ci il tarixlərində ORHUN proqramı çərçivəsində Bakı Slavyan Universitetində rus dili fənnini tədris edib. Dərslər Filologiya fakültəsinin rus dili ixtisası üzrə təhsil alan tələbələri üçün keçirilib.

Tədris müddətində tələbələrə rus dilinin morfologiyası, sintaksisi, leksikologiyası və digər bölmələri haqqında geniş məlumat verilib. Nəticədə tələbələr bu sahələr üzrə dərin biliklərə yiyələniblər. Proqram tələbələrə müxtəlif ölkələrin təcrübəsini öyrənmək, dil bacarıqlarını inkişaf etdirmək və beynəlxalq əməkdaşlıq imkanlarından faydalanmaq üçün geniş şərait yaradır. Onun əsas üstünlüyü tələbələrdə həm dil, həm də mədəniyyətlərarası ünsiyyət bacarıqlarının formalaşmasına töhfə verməsidir.



---

22 sentyabr - 5 oktyabr tarixlərində **Bakı Slavyan Universitetinin Rus dili kafedrasının müəllimi Vəfa Tağızadə** ORHUN akademik mübadilə proqramında iştirak etmək hüququ qazanıb. Proqram çərçivəsində o, Xoca Əhməd Yəsəvi adına Beynəlxalq Qazax–Türk Universitetinin Rus dili və ədəbiyyatı kafedrasının üzvləri ilə görüş keçirmişdir. Görüş zamanı elmi planlar, kafedralar arasında əməkdaşlıq perspektivləri, birgə tədqiqatlar və təcrübə mübadiləsi məsələləri, eləcə də rus dilinin xarici dil kimi tədrisi metodları müzakirə olunmuşdur. Həmçinin, Rus dili və ədəbiyyatı kafedrasının müəllimləri Bakı Slavyan Universitetinin Rus dili kafedrasına məxsus dərs vəsaitləri və dərsliklərlə tanış olmuş, metodik resursların mübadiləsi imkanları nəzərdən keçirilmişdir. Bu cür təmaslar peşəkar əlaqələrin möhkəmlənməsinə, ortaq elmi və tədris təşəbbüslərinin inkişafına mühüm töhfə verir.

Proqram çərçivəsində keçirilən ilk dərs Xoca Əhməd Yəsəvi adına Beynəlxalq Qazax–Türk Universitetinin Filologiya fakültəsində baş tutmuş və “Qazaxıstan və Azərbaycan: xalqların qardaşlığı və mədəni əməkdaşlıq” mövzusuna həsr olunmuşdur. Dərs Azərbaycan və Qazaxıstan dövlət himnlərinin səsləndirilməsi ilə başlamış, tədbirə xüsusi təntənəli ab-hava qatmışdır. Daha sonra tələbələr prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayevin görüşləri ilə bağlı videomateriallara baxmış, diplomatik münasibətlər, mədəni-humanitar əməkdaşlıq və regional inteqrasiya ilə bağlı leksika və ifadələri müzakirə etmişlər.
Eyni zamanda, dərs zamanı tələbələr Azərbaycanda keçirilən Qazaxıstan günlərinə həsr olunmuş videomateriallarla tanış olmuş, habelə görkəmli qazax şairi və ictimai xadim Oljas Süleymenovun Prezident tərəfindən “Şərəf” ordeni ilə təltif olunması haqqında sərəncamı dinləmişlər. Tədrisin praktik hissəsində isə tələbələr dinləmə, oxu, danışıq və yazı üzrə tapşırıqları yerinə yetirmiş, rus dilində xarici dil kimi bacarıqlarını inkişaf etdirmişlər. Bu format dərsin həm dil, həm də mədəniyyət kontekstini birləşdirərək tələbələrdə interkultural kompetensiyanın formalaşmasına xidmət etmişdir.









**KONISOVA AYGERIM AQZAMQIZI**

13-24 oktyabr 2025-ci il tarixlərində ORHUN proqramı çərçivəsində Xoca Əhməd Yəsəvi adına

Beynəlxalq Qazax–Türk Universitetindən dəvət olunan müəllim Aygerym Konisova 2025-ci ilin Bakı Slavyan Universitetinin Təhsil fakültəsində İbtidai sinif müəllimliyi və Psixologioya ixtisasları üzrə təhsil alan tələbələrə “Xarici dildə işgüzar və akademik kommunikasiya-I” (İngilis dili) fənnini tədris edib. Professor-müəllim heyətinin ORHUN mübadilə proqramında iştirakı Türk dövlətləri universitetləri arasında elm, təhsil və mədəni əlaqələrin gücləndirilməsinə, yeni əməkdaşlıqların qurulmasına, eləcə də üzv universitetlər arasında elmi tədqiqat və təcrübə mübadiləsinin təşviqinə zəmin yaradır.

